# NƏVƏLƏRİN TACI





Sima Nadir qızı Ramazanlı

Ankara 2021

**Müəllif:** Məhərrəm Zülfüqarlı-prof. Dr.

**Rəyçi:** Ulfan Zülfüqarlı

Ön söz

- Hamı  danışır, mən isə düşünürəm
- Nəvələrin tacı
- Düşündürücü, ağıllı cavablar
- Məsələlərə obyektiv yanaşmağın nümunələri
- Gözü tox, təmiz qəlbli nəvə
- Təəssübkeşlik
- Uduzmağı xoşlamayan nəvə
- Mən niyə uduzan takımda olmalıyam
- Ət yeməyini xoşlayan balamız
- Baba sən *Excited* olmuşdun?
- Mənim güllərdən xoşum gəlir
- Ürəkdən hazırlanan ətirlər
- Ulduz adlı meymunun ad günü
- Azıx, Aclıq, Azan mağarası
- Torpaqların işğaldan azad olunması haqqında Simanın düşüncələr
- Azərbaycan Milli Ordusunun 44 günlük Vətən müharibəsindəki qələbələrinə münasibət
- Azərbaycanın qardaşı Türkiyə, bacısı isə Pakistandır
- Bir millət, iki qardaş!

**Ön söz**



*Hamımızın əzizi, canı, ciyəri olan Sima balamız dil açdıqdan sonra dediyi hər söz, cümlə həyatımıza şirinlik qatmış və indi də qatmaqdadır. Onun saf, təmiz sözlərində olan məntiq ilk günlərdən diqqətimizi cəlb etmişdir. Simanın ağıllı sözləri hamımızın dilinin əzbəri olmuş və bu gün də olmaqdadır. Onun ağıllı sözlərinə olan böyük maraq bu kitabın yaranması ideyasını ortaya çıxarmışdır. Kitabın bu il ərsə gəlməsi də onun məsələyə ağıllı, qətiyyətli münasibət bəsləməsi nəticəsində mümkün olmuşdur. Qohumlar bir yerə yığışanda kitabın nə zaman nəşr olunacağı ilə bağlı müzakirə açılmışdır. Orada "kitabı inşallah balamızın 10 yaşı olanda nəşr edərik" fikri səslənəndə balaca Sima o dəqiqə sərras cavab verdi: " Nə 10 yaş. May ayının 30-da ad günümə kitab nəşr olunmalıdır!"*

*Onun ürəklə dediyi bu sözlərdən sonra bir akademikin dediyi kimi " bizim ağzımız nə idi ki, nəşr etməyək!" Ona görə bütün qüvvəmizi səfərbər edərək balamızın ad gününə bu kitabı nəşr edib, hədiyyə etməyi qərara aldıq.*





“ **Hamı danışır, mən isə düşünürəm** ”






Sima uşaq vaxtı baxçaya getsə də, onu baxça adlandırmağı xoşlamayaraq Okul adlandırırdı. Okulda kamera olduğundan valideynlər öz uşaqlarının gün ərzidə fəaliyyətini izləyə bilirdilər. Bir gün anası ona dedi: “ Qızım okulda uşaqlar hamısı danışır, sən niyə sakit oturursan. Sima bir qədər fikirləşib cavab verdi: “ Ana okulda hamı danışır, mən isə düşünürəm!”

**Nəvələrin tacı**



Sima iki ailənin, Ramazanlılar və Zülfüqarlılar ailəsinin ilk nəvəsi olduğundan həmişə çox əzizlənir və hər zaman təriflənirdi. Sonrada yeni gənc ailələrin qurulması ilə Simanın dayısı, bibisi övladlarının dünyaya gəlməsi vəziyyəti bir qədər dəyişdirdi. Yəni onu əzizləməklə yanaşı, yeni nəvələr də əzizlənməyə başlanıldı ki, bu da Simanı bir qədər qayğılandırdı. Buna görə bir gün Qafar babasına yaxınlaşıb, qayğılı şəkildə soruşdu: "Baba əvvəl tək nəvə mən idim. İndi Atilla, Liliya dünyaya gəlib. Bəs indi necə olacaq?" Babası onun narahatlığını aradan qaldırmaq üçün dedi: "Qızım sən bizim birinci, gözəl nəvəmizsən. Sən nəvələrin tacısan. Bundan sonra nə qədər nəvə dünyaya gəlsə də, sən həmişə nəvələrin tacı olaraq qalacaqsan." Bu sözlər onu çox sevindirdi.






- Sima qohum olan Zülfüqarlı və Ramazanlı ailələrinin ilk nəvəsi olduğundan hamı fikirləşirdi ki, balaca nəvələri oynadanda çalışsınlar ki, onun xətrinə dəyən hansısa hərəkət etməsinlər. Bir gün anası nəyəsə görə ona acıqlananda Sima anasına dedi: “Sən bilirsən kimə acıqlanırsan, nəvələrin tacına!”




**Düşündürücü, ağıllı cavablar**

- Sima babası gilə gəlir və babasının balaca ayı balası şəklində olan filəşini götürüb başlayır oynamağa.

  Baba filəşdə lazımlı materiallar olduğundan, filəşin itəcəyindən ehtiyat edərək deyir:

  “Qızım onu ver mənə bizə gələndə oynadarsan”

  Sima təəccüblə babasına baxıb cavab verdi: “Baba gəlmişəm də. Oynadım, sonra verərəm.”

  (02.2020)

 Ramazan ayı axşam Sima babası ilə çölə çıxanda babası göydəki ayparanı göstərib: “Qızım bax gör nə gözəl ay çıxıb”. Sima cavabında dedi: “Hə doğurdan da gözəldi, çünki Ramazan ayıdır.” (27 aprel 2020)

- Bir gün axşam babası yan tərəfdən laxlayan beş dişini çəkdirib evə gələndə, Sima onun qarşısına qaçaraq dedi: “baba narahat olma, dişlərini çəkdirdin yerinə yenisi çıxacaq, mənim də dişlərim çəkmişdilər yerinə təzələri çıxdı.” (02.03.2021)

28 fevral 2021-ci il tarixdə səhər tezdən dərsə gedərkən Babası Simadan soruşdu: “Qızım bu gün sənə nə alım?” Sima fikrləşərkən babası dedi ki, alpenqoid şokaldı alım? Sonrada özü də dedi ki, yox qızım anan deyir ki, boğazın ağrıyır şokalad olmaz. Bayaqda səssiz dayanan Sima birdən əsəbləşdi: “Sizə nə qədər demək olar ki, mənim boğazım ağrımır. Gərək yazılı şəkildə bunu sizə bildirim?.”

Səhəri gün yenə babasının maşınında dərsə gedərkən Sima mama deyə anasına müracət edərkən babası elə bildi ki, baba deyir. Ona görə də nəvəsinə dedi ki, qızım sən mama deyirsən, mən baba başa düşürəm. Yaxşısı budur ki, sən mama əvəzinə ana de. Hazırcavab Sima o dəqəqə qayıtdı ki, mən ana desəm də sən onusuz da yenə baba eşidəcəksən

Sima ata və anası ilə Ankaraya nənəsi və babasının yanına getmişdi. Dayısının ailəsi də orada idi. Ailə birlikdə Novruz bayramını qeyd etməyə hazırlaşırdı. Simagil Ankaradan sonra İstanbula bibisi gilə gedəcəkdilər. Sima ilə dayısının yoldaşı dayısı oğlu Atillaya banan yedizdirdikləri vaxt, mətbəxdən səs eşidildi ki, Simanın çamodanına Bakıdan gətirdikləri əti qoyub İstanbula aparmaq istəyirlər. Sima təcili Atillanı anasına tapışırıb mətbəxə gedərək ata və anasına dedi:

> "Axırıcı dəfə olsun, görüm ki, mənim çamodanıma ət qoyursuz. Mən sonra ona nə qədər duxu vurum ki, ətin iyi getsin. Özü də 6 kq çoxdur, heç olmasa 5 kq qoyun." (23.03.2020)





- Koronavirus vaxtı hamı evə gələrkən mütləq əllərini sabunla yumalı idi. Sima ailə üzvlərinə dedi ki, əllərinizi sabunla yuyarkən "Həppi böz dey tu yu" oxuyun və mahnı qurtarana qədər əllərinizi yuyun.
- Bir gün pandemiya vaxtı evdən çıxarkən atası Simadan soruşdu:

  " Qızım sənin cibində ehtiyat maska varmı?" Sima bu suala tez sualla  cavab verdi: "Ata mənim cibimdə niyə ehtiyyat maska olmalıdır ki?

- Simanın Məhərrəm babası uzun müddətə Türkiyə Cümhuriyyətinə getdiyi üçün avtomobilini onların həyətlərinə qoymuşdu. Qafar babası ilə həyətdə gəzərkən babasının maşının seriyasına baxaraq soruşdu: Bu CZ nədir? Tez özü də cavab verdi: Yəqin Cənəb Zülfüqarlı deməkdir. Bəs atamın avtomobilinin seriyası BF nədir? Yenə də özü cavab verdi: Bu da yəqin Baba Fisqırıq deməkdir.

- Bir gün babasının maşınında nənəsi ilə birlik Bakıda 28 MALL tərəfə gedərkən babası nənəsinə müraciətlə: “Yeni qayda qoyublar, taksilər 28 MALL-un qabağında dayananda kameraya düşür və cərimə olunurlar. Başa düşmürəm, bəs adamlar taksilərə harada minməlidirlər?” Bundan sonra baba nənənin cavab vermədiyini görüb, soruşdu ki, səninləyəm, niyə cavab vermirsən? Bu zaman əyilib maşında əlindən düşən ayıcığını axtaran balaca Sima aşağıdan yuxarı gərgin vəziyyətdə nənəsinin əvəzinə cavab verdi: “Adamlar taksiyə minməsinlər də!”

- Yenə bir gün babasının maşınında gedərkən yol hərəkətini pozan sürücü haqqında babası hirslənərək. Ona “bu sürücü qudurub” deyəndə Sima tez cavab verdi: “ Baba adam qudurmaz e, it qudurar”. Bundan sonra babası əşi sən də qızışdırma deyəndə, o sakit dayanmayaraq öz fikrini müdafiə edərək anasına müracətlə dedi: “Ana it qudurur, pişik də qudurur?” Bundan sonra hamı gülür və gərginlik aradan qalxır.



**Məsələlələrə obyektiv yanaşmağın nümunələri**

- Bakıdakı Gənclik MALL-un Bowling zalına Sima babası, nənəsi ilə tez-tez gedərdi. Həmişə axırda babası onu orada olan fəxri kürsünün birinci pilləsinə qaldırıb, mükafat verib şəklini çəkərdi. Bir gün Sima babası ilə Koala parka gedir və orada yellənçəkdə yelləndikdən sonra babası burada da onu fəxri kürsüyə qaldırıb şəklini çəkir. Sima

bundan sonra təəccüblə soruşur: “Baba axı mən heç nə etmədim. Mən nəyə görə birinci yer tutdum ki, şəklimi çəkirsən?”




- Sima anası ilə birlikdə babası gilə gəlir. Baba, nənə və anası qapının ağzında birlikdə söhbət edərkən qohumlardan kiminsə xəstələnməsi haqqında danışır və bu söhbəti Simadan gizlətməyə çalışırlar. Balaca Sima birdən başını başqa işlərdən ayırır və söhbətə qulaq asaraq anasından kimi xəstələndiyini soruşur. Söhbət edənlər bunu ondan gizlətməyə çalışdığından babası onun fikrini yayındırmaq üçün uzaqdan qonşunun evini tikən ustanı göstərib deyir ki, bax o usta xəstələnib. Sima buradakı məntiqsizliyi anlayaraq sual verir: “Biz indi gəldik, ana qonşunun evini tikən ustanın xəstələnməsini hardan və nə tez bildi?” Bundan sonra böyüklər ondan söz gizlətməyin mümkün olmadığını başa düşərək susmağa üstünlük verdilər. (02.2020)



**Qazlar indi gedin otlamağa**

Qohumlar bir yerdə Nabrandan bayram tətilindən qayıdarkən yolda nahar etmək üçün dayandılar. Nahardan sonra Sima dedi ki, indi düzülün sizinlə “Qaz-Qaz oyunu” oynayacağıq. Onun göstərşi ilə babalar, nənələr, ata və ana soyadlarına görə komanda təşkil edib üzbəüz sıraya düzüldülər. Sima oyunu qurtarandan sonra ucadan dedi. İndi qazlar qanadlarınızı açın, uça-uça gedin otlamağa. (09 mart 2020)



- Sima babası ilə radioda M.Ə.Sabir haqqında verilişə qulaq asır. Radioda şairin ailə həyatı qurduqdan sonra 8 qızı və bir oğlu olması haqqında məlumatı eşitdikdə o, babasına deyir: “Lap uşaq evi olub ki. ” (28.03.2020)
- Koronavirus pandemiyası ilə bağlı onlayn dərs keçəndə Sima çoxlu ulduzlar alırdı. Sima baxçaya getmədiyinə görə müəllimlər internet vasitəsilə ona dərs keçirdilər. Bir gün müəllimə qələmlərin rəngləri ilə bağlı Simadan dərs soruşduqdan sonra bildirdi ki, kim istəsə gələn dəfə “mən bu rəngi xoşlayıram cümləsini ingiliscə desin”. Anası bir qədər sonra müəllimənin dediyini onun yadına salaraq deyəndəki gəl cümləni deyək, o belə cavab verdi: “Axı müəllimə demişdi ki, kim istəsə. Mən isə istəmirəm.” (aprel 2020)
- Bir gün Simanın müəlliməsi çiçəklər haqqında məlumatlar toplamağı tapşırır. Evdə o, anası ilə qızıl gül haqqında söhbət edir. Anası soruşur ki, qızım qızıl güldən nə əldə etmək olur? Sima cavab verdi ki, qızıl güldən ətir, sabun hazırlayırlar. Anası bildirəndə ki, qızıl güldən gülqənd də hazırlayırlar. Sima cavab verdi ki, axı sən bunu mənə deməmisən. Mən gülqənd yeməmişəm, ona görə də bilmirəm gülqənd nədir. Ondan sonra Sima nənəsi gildə qızıl gül görən kimi “nənə bundan gülqənd hazırlayarsan və mənə də öyrədərsən” dedi və özü də bu işdə nənəsinə ürəklə kömək etdi. (aprel 2020)



- Sima hər dəfə babası gilə gələndə babası ilə digər oyunlarla yanaşı evin alt qatında qaçdı-tutdu da oynayırdılar. Oyunun şərti belə idi ki, baba qışqıra-qışqıra qaçmalı, Sima isə qovub onu tutmalı idi. Bundan sonra fasilə elan olunur, Sima yorulduğuna görə velisopetdə gəzdirilirdi və bir neçə dövrə vurulduqdan sonra yenidən qaçdı-tutdu başlayırdı. Bir dəfə baba qaçarkən birdən nəvə çətinliklə də olsa ona özünü arxadan yetirir, lakin tam tuta bilmədiyindən babasının şalvarından yapışıb dartır və şalvar bir an bir az aşağı düşür. Baba və nəvə hər ikisi bu səhnədən uğunub uzun müddət gülürlər. Nə baş verdiyini tam anlamadığından gülmək anında balaca Sima gülə-gülə babasından soruşur: “baba biz indi nəyə gülürük?” və sonra yenə gülməkdə davam edir. (aprel 2020)

- Bir gün babası beli ağrıdığından yuxarı otaqda istirahət edirdi. Sima da onlara qonaq gəlmişdi. Həmişə babası ilə müxtəlif oyunlar oynayan nəvə bir qədər aşağıda oynadıqdan sonra yuxarı qaçıb babasına dedi: Baba gəl dombalaq aşaq. Baba heysiz gülərək qızım baba xəstələnib dedikdə Sima cavab verdi: Onda sənə yaxınlaşmaq olmaz. (O zaman koranavirusdan karantin dövrü idi) (11 May 2020)



Bir gün Sima babasından soruşdu: “Baba mənim anamın adını kim qoyub?” Baba cavab verdi ki, mən. O mənim anamım adıdı. Sima bir qədər düşünüb dedi: “Baxçada müəllimə deyir ki, ananın adı nədir? Deyirəm Xanım. Mənə cavab veririr ki, ananın adını soruşuram ey! Olmazdı ki, Xanımın əvvəlində başqa ad da olaydı?



- Sima babası ilə talvarın altında oturub söhbət edirlər. Balaca Sima deyir ki, baba pişik və it yaxşı heyvanlardı. Mən Antalyada olanda pişiyi sığallamışam. Baba onu bu fikrinə qarşı çıxaraq it və pişiyi başlayır pisləməyə. Sima isə öz fikrində qalaraq tərifləməkdə davam edir. Axırda baba deyir ki, qızım it və pişikdə müxtəlif xəstəliklər olur. Onlar quduzluq xəstəliyinə tutulub insanları dişləyəndə insanlar ölürlər. Sima bir qədər düşünüb sakitçə dedi: Onda onlardan uzaq durmaq lazımdır.
- Bir gün Sima anasından soruşdu ki, ana mənim 16 yaşım olanda sənin neçə yaşın olacaq. Anası cavab verdi ki, 42. Kənardan baxan babası nəvəsinə baxıb dedi ki. Qızım sənin 16 yaşın olanda mənim inşallah 75 yaşım olacaq. Sima bunu eşitcək babasına baxıb dedi: “Baba sən artıq qocalığa doğru gedirsən.”

- Babasının 65 illik yubleyində ailə kiçik məclis təşkil etmişdi. Məclisin açılışında baba təklif etdi ki, hamı Azərbaycanın dövlət himnini ifa etsin. Bala Sima buna etiraz etdi ki, “himn ancaq Prezident üçün oxunur, sən axı prezident deyilsən” və himni oxumağa başlayanlara axıra qədər ifa etməyə imkan vermədi.
- Məktəbə getməyə az qalmış babası Simaya dedi ki, istəyirsən gəl mən at olum sən də min. Sima cavab verdi ki, baba axı mən böyümüşəm, onu balaca olanda edirdik. Amma sonradan bunlar yaddan çıxdı və babasının belinə minərək gülə-gülə gəzməyə başladı.
- Sima babası və atası ilə Corata gedərkən Saraydan toyuq və peraşki alırlar. Peraşkinin dadına baxdıqdan sonra xoşuna gəlmədiyinə görə əlini silmək üçün salfet istəyir. Babası salfet olmadığından özünün cib yaylığını ona verəndə Sima deyir: "Baba sən yüz dəfə buna tərini silmisən, indi sən istəyirsən ki, mən bununla əlimi silim" deyərək yaylığı geri qaytarır.
- 2021-ci ilin mart ayının 22-də Simagil ailəliklə Ankaraya, ordan da İstanbula səfərə çıxacaqdılar.  Nənəsi Sima xanım qızı Ləlgilə yeni dünyaya gəlmiş nəvəsini görmək üçün İstanbula getmişdi. Nəvə Sima babası ilə top oynaya- oynaya dedi ki, baba bilirsən də Qafar baba bizimlə Türkiyəyə getməyəcək. Nəvəsinin könlünü almaq üçün babası dedi ki, qızım baba yəqin fikirləşib ki, gedərəm yorularam, ona görə getməyir. Sima tez cavab verdi, "Biz təyyarə ilə gedirik e, nə yorulmaq."
- Yenə bir gün top-top oynayan zaman Sima tez-tez oyundan çıxaraq gah şəkil çəkir, gah da televizora baxırdı. Babası buna görə ona dediki, oynamırsansa mən də istirahət edim. Bunu eşitcək Sima tez anasının yanına gedərək bildirdi ki, baba mənimlə top-top oynamır. Bunu eşidən baba yenidən onu çağıraraq oynamağa başladılar. Baba Simaya dedi ki, niyə bir şey olmamış tez anana şikayət edirsən? deyə soruşanda o cavab verdi: "Mən həmişə bir şey olanda atama, anama şikayət edirəm. Bu mənim xasiyyətimdir.”




**Gözü tox, təmiz qəlbli nəvə**

- Babası ilə Sima bir gün həyətdə yer qazarkən böyük bir daşa rast gəlirlər. Baba deyir ki, qızım səncə bunun altından nə çıxacaq? Sima düşünmədən cavab verdi ki, Baba o daşın altından kağız çıxacaq və o kağızda xəzinənin harda olması yazılacaq. Baba bundan sonra dedi ki, qızım əgər daşın altından qızıl çıxsa sənə verəcəyəm. Sima fikirləşib cavab verdi ki, baba mən qızılı neynirəm. Babası dedi ki, sırqa düzəltdirib taxarsan qulağına. Sima bir daha etiraz etdi ki. Onsuz da anam sırqa taxmağa qoymur. Ona görə də mənə qızıl lazım deyil. (iyul 2020)

- Bir gün Sima babasının maşınında gedərkən birdən başladı məlumat verməyə: "Baba bilisən bibimgil İstanbulda təzə evə göçüblər, həyətlərində baseyn də var." Babası cavab verdi ki, lap yaxşı, təbrik edirəm. Sonra birdən o babasından soruşdu: "Baba sən yayda İstanbula getmək istəyirsən? müsbət cavab aldıqdan sonra dedi: " Mən səni dəvət edirəm. Gedərik baseyndə çimərik, sonra da rastişka yeyərik."



**Təəssübkeşlik**

- Sima babası ilə top-top oynayırdı. Birdən babası ona atasına aid sual verdi. Sima dayanıb suala cavabın atasının xeyrinə olmayacağını fikirləşdi və dedi ki, "baba oyun oynayanda danışmaq olmaz."



- Sima uşaqlıqdan şox təəssübkeş idi. Bir gün nənəsi gödəkcəsini çıxarmaq istəyərkən nəsə ilişir. Nənə bir qədər əsəbi şəkildə "bu niyə belə çətin açılır" deyəndə, Sima: “Bunu mənim atam alıb. Mənim atam heç vaxt pis şey almır” deyərək gödəkcə haqqında nəsə başqa söz deyilməsinə imkan vermədi.

- Bir gün babası ilə Sima dayısının toy günü gəlin gətirmək üçün həyətdə rəqs eləyənlərin videosuna baxırdı. Baba tək özü oynadığı səhnəni ona göstərib soruşdu: “Qızım kim yaxşı oynayır?”
  Sima düşünmədən tez cavab verdi: Bibim. Baba: Axı bibi oynamır. Sima: Nə olsun ki, oynamır. Amma bibim hamıdan yaxşı oynayır.” Bu onun bibisini çox istəməsini, təəssübkeşliyini göstərirdi.





**Xəzinə oyunu**

- Anası ilə tez-tez babasıgilə gələrkən Sima qoltuğunda Xəzinələrin xəritəsini gətirirdi. O xəritəni açaraq ciddi şəkildə babasına həyətin hansı tərəfində xəzinə olduğunu bildirərək qazmasını xahiş edirdi. Bu zaman özü xəlvətcə qazılan yerlərə kiçik fiqurlar ataraq, sonradan xəbəri olmamış kimi xəzinəni aşkara çıxarar və buna ürəkdən sevinərdi. (aprel 2020)



- Yay fəslində babası Simanı Coratdakı evlərinə gətirərkən sakitcə babasına dedi: “Baba mən anamla belə qərara gəldik ki, sən bu gün çərhovuzu təmizləyəsən və su doldurasan, mən çimim. Babası keçən yaydan çərhovuzun təmizlənmədiyini düşünüb dedi: qızım olar ki, sabah təmizləyim və sən növbəti dəfə gələndə çimərsən? Sima sakitcə cavab verdi: “Axı mən anama söz vermişəm”.

- Baba xəstələndiyinə görə nənə ona iynə vururdu. Bir gün bu prosesdə Sima da iştirak edirdi. Nənəsi ilə birlikdə babaya yaxınlaşaraq qışqırır ki, baba uzan sənə iynə vuracağıq. Baba nəvəsinə deyir ki, qızım sən mənimlə üz-üzə dayan nənə ayaq üstə iynəni vuracaq. Əlbəttə ki, belə anda Simanı saxlamaq mümkün deyildi və o, heç babasının sözünü eşitmədən nənəsinin yanına qaçaraq iynə vurulma prosesini əyani şəkildə izlədi. (may 2020)




- Sima babası gilə bir həftə əvvəl gələndə atası bildirdi ki, qızımın ayağı böyüyüb, ona görə bu gün ona təzə 32 ölçüdə ayaqqabı aldıq. Bundan sonra Sima böyümüş ayaqlarını göstərəndə barmağının uzanaraq corabın ayaq tərəfinin ucundan cıraraq çölə çıxdığını görüb hamı gülüşdü. Babası dedi ki, gələn dəfə belə olsa barmağını dişləyəcəm. Növbəti dəfə də bu hal təkrar olanda Sima babasına gülə-gülə dedi ki, baba sən demişdin ki, barmağımı dişləyəcəksən. Yenə də barmağım çıxır. Bu dəfə də hamı gülməyə başlayarkən babası zarafatla dedi: "Uşağın iki babası, iki nənəsi, atası, anası işləyir balama cırıq corab geyindirirlər. Özü də Sima Avropa-Azərbaycan məktəbində oxuyur". Sima bunu eşidərkən güldüyü yerdə birdən dayandı və sifəti çox ciddi görkəm alaraq dedi: "Baba mən Avropa-Azərbaycan məktəbinə gedərkən təzə ağ corab geyirəm. Bunları isə hərdən evdə oynayanda geyinirəm" (18 dekabr 2020)

**Uduzmağı xoşlamayan nəvə**

- Sima uşaqlıqdan uduzmağı xoşlamırdı. Bir gün Simanın anası öz atası ilə, Sima da öz atası ilə iki-ikiyə komanda düzəldib futbol oynayırlar. Baba nəvəsinin xasiyyətini bildiyindən şərait yaradır ki, qol vursun. Anası isə əksin müdafiə olunur. Buna əsəbləşən Sima deyir: "Ana sən futbol oynayırsan, ya oyun oynayırsan." (mart 2020)

- Sima bir gün babası ilə "Xan-vəzir" oynamaq üçün hazırlıq görür. Baba 4 kiçik kağız düzəldərək xan, vəzir, vəkil və nökər yazmaq üçün Simaya verir. Baba görür ki, Sima xan yazılan kağızın üzərinə bir nöqtə qoydu. Simadan bunu səbəbini soruşanda, bildirdi ki, mən xan olmalıyam ona görə belə etdim. Kağızlar bükülüb qatışdırılaraq atılan kimi, Sima xan yazılan kağızı götürdü. İkinci dəfə

anası bu kağızı götürmək istəyəndə bildirdi ki, o mənimdir, onu heç kim götürməsin. (11.04.2020)

- Sima özündən müxtəlif oyunlar fikirləşirdi. Bunlardan Xəzinə (Yəni, torpağı qazıb bir oyuncağı ora basdırıb, sonra qazıb tapmaq), Prinses (Piləkanın tutacağından prinses kuklaları sürüşdürmək), Xan-vəzir, Daş və qayçı, Babası ilə zirzəmidə qışqıra-qışqıra qaçdı tutdu, Şaşki daşlarından bombalamaq, stulun başına anası ilə müsiqi sədaları altında firlanaraq, müsiqi kəsiləndə oturmaq və s. göstərmək olar. Bundan başqa Futbol, Ortada qalma, Şaşki və s. oyunlar oynayırdı. Onun fikrincə oyunlarda yalnız o qələbə çalmalı idi, başqa cür ola bilməzdi.




**Mən niyə uduzan takımda olmalıyam**

- Sima ata və anası, dayısı və dayısını yoldaşı ilə birlikdə Ankarada həyətdə basketbol oynamağı planlaşdırırdılar. Sima təklif etdi ki, mən, atam, anam -Ramazanlılar takımında, dayım və yoldaşı isə -Zülfüqarlılar takımında oynasın. Oyun başlayanda Sima görür ki, Zülfüqarlılar takımı hesabda irəli çıxdı, oyunu dayandırdı və dedi: “Gəlin takımların tərkibini dəyişək, mən dayımın takımına keçirəm. Bundan sonra dayısı Simaya dedi ki, sən hücumçusan get irəli, mən sənə topu atacam və sən də səbətə atarsan. Oyunun qızğın vaxtında Sima gördü ki, anası dayısına topu ona atmağa imkan vermir, buna görə də dedi: " Siz niyə dayıma əngəl olursunuz ki, topu mənə ata bilmir. Oyunu düzgün oynayın"

Oyundan sonra evdə ondan soruşanda ki, niyə takımnı dəyişdirdin? Düşünmədən cavab verdi: “Mən niyə uduzan takımda olmalıyam ki."

**Ət yeməklərini xoşlayan balamız**



- Sima uşaqlıqdan ət yeməklərini xoşlayir. Hətta təzə dil açmağa başlayanda babası şəhərdə gəzməyə çıxanda ondan soruşmuşdu ki, can, balam acıb? O da cavabında yalnız bir söz demişdi: "Ət". Pandemiya dövründə atası evdən onlayın işlədiyindən anası işə gedir, Sima da atası ilə evdə onlayn dərs keçirdi. Evdə həmişə ətli yemək olsa da cəmi bir dəfə ətsiz mərci şorbası olur. Sima qaşığı şorbanın içinə salıb bir qədər axtarış apardıdan sonra, ət olmadığını görüb atasına dedi: "Biz nə vaxt normal yeyəcəyik"
- Evlərində təmir işlərinin başlaması ilə əlaqədar bir müddət Sima babası gildən dərsə getməli olmuşdur. Vəziyyət elə gətirir ki, Sima 2 gündə 2 dəfə şorba yeməli oldu. Evdə şəkil çəkərkən birdən babasına tərəf çevrilib dedi: " Baba biz burda elə sup yeyəcəyik?" ( mart 2020)

**Baba sən Excited olmuşdun?**

- Bir gün yenə Sima babası gilə gələndə söz qaz sayğacından düşür. Babası bildirir ki, biz Coratdan Bakıya qayıdanda gördük ki, sayğacı dəyişib kartsız sayğac qoyublar. Sima bu zaman ingilis dilində dərslər keçdiyindən baba və nənəsinə keçdiyi sözləri öyrədirdi. Babası deyəndə ki, sayğacı dəyişdirdiklərinə görə çox həyacanlandım deyəndə, Sima birdən babasına müraciətlə, "baba sən Excited olmuşdun?" deməklə hamını güldürdü.



**Mənim güllərdən xoşum gəlir**

- Növbəti gün babası Simaya dedi ki, qarşıdan 8 mart gəlir. Həmin vaxt səni görə bilməyəcəm. İstəyirəm sənə qabaqcadan hədiyyə alım, nə istəyirsən de baba alsın. Sima bir qədər fikirləşəndən sonra dedi ki, mənə ətir al. Anası dedi ki, sənın ətrin var axı. Sima cavab verdi ki, az qalıb. Babası soruşanda ki, qızım sənin ətirdən niyə xoşun gəlir? Sima cavab Verdi: "Mənim güllərdən xoşum gəlir. Ətiri də güllərdən alırlar. (02.03.202



**Ürəkdən hazırlanan ətirlər**

- Babası 8 martda Simanı görmək imkanı olmadığından martın 3-də ona ətir almışdı. Həmin vaxt Sima 3 gün dərsləri canlı keçdiyindən Bakıda babası gildə qalırdı. Qalan günləri isə Coratda o biri babasının yanında onlayn dərslər keçirdi. Buna görə hədiyyə qabaqcadan alınmışdı. Simanın hədiyyə çox xoşuna gəldiyindən o biri babasına zəng edərək bu barədə məlumat verdi və dedi ki, istəyirsən şəklini çəkim göndərim. Ən xoşa gələn fikirləri isə axşam atası və babası ilə danışanda dedi: "Bu gün babam mənə ətir hədiyyə alıb. Ətirlər güldən

hazırlanır. Amma mənə və anama alınanan ətirlər ürək iyi verir. Çünki bu ətirlər ürəkdən hazırlanıb.” (03. mart 2021)



**Ulduz adlı meymunun ad günü**

- Mayın 30-na, Simanın ad gününə hələ 2 ay qalsa da babası telfonla danışanda Simaya dedi ki, ad gününə baba nə alsın? Sima cavab verdi: baba mənim ad günümə hələ çox var. Mayın 1-də mənim meymunumun ad günüdür. Adı da Ulduzdu. Ana tort, nənəm isə qreçka bişirəcək. Bundan sonra babası nəvəsinin meymunun ad günü təbrik etmək üçün aşağıdakı şerləri yazdı:

Simanın yanında vardı gözəl Meymun,

Hamımız bu işdən olmuşuq məmnun,

Meymun çox sevir ətirli tərxun,

İstəsəniz Ulduz adın qoyarıq Aysun!

Bu şerə qulaq asan kimi Sima telfonda rəsmi olaraq bildirdi ki, meymunun adı Ulduzdu. Vəsallam. Bundan sonra babası yeni şer yazıb yolladı:

Balamın meymununun adı Ulduz,

Ad gününə gətirəcəklər çorək, duz.

Ulduzun adı bizim üçün əzizdir,

Onun qəlbi, vicdanı kimi təmizdir!

Simanın ad günü may ayındadır,

Sevimli meymunu qucaqındadır.

Ad gününə gələcək çoxlu qonaqlar,

Nənəsi bişirəcək şirin qoğallar.




- Növbəti dəfə Meymunun ad günü ilə maraqlananda Sima bildirdi ki, Ulduzun ad gününü 1 iyuna keçirmişəm. Çünki 1 iyun uşaqların beynəlxalq müdafiəsi günüdür.



Babası və nənəsi Simanın meymunun ad günü münasibəti ilə Ankarada ona yeni meymun hədiyyə almışdılar. Telfonla danışan zaman babası hədiyyə alınan meymunu ona göstərərək Simanın bu meymunu bəyəndiyini soruşduqda o cavab verdi: “Xoşuma

gəlir. Bu təzə meymun mənim meymunumun bacısıdır, yoxsa qardaşı?” Babası cavab verdi ki, qardaşı. Bundan sonra Sima onun adının nə olduğunu soruşanda babası  bir neçə ad desə də razılaşmadı: “Mənim meymunumun adı Ulduzdursa, onun da adı Ay olsun”













## Azıx, Aclıq, Azan mağarası

- Babası Simanı hər həftə evlərinə qonaq gətirirdi. Sima maşında babasına müraciətlə dedi: baba sən tarix müəllimisən. De görüm Qarabağda hansı qalalar var? Baba nəvəsinin bu sualından fərəhlənərək bildirdi ki. Qarabağda Şahbulaq, Əsgəran, Şuşa və s. qalalar var. Hətta daş dövrünə aid Azıx mağarası da Qarabağda yerləşir. Evə gəldikdən sonra  Sima nənəsinə dedi: "Nənə bilirsən Qarabağda "Aclıq" mağarası var. Nənəsi bir qədər güldükdən sonra dedi ki, qızım Aclıq mağarası yox, Azıx mağarası. Sima bundan sonra fikirləşərək bildirdi ki, Nənə yəqin onun adı Azan mağarasıdır. Yəqin adamlar orda azıblar, ona görə adın bu cür qoyublar. (Noyabr 2020)

## Torpaqların işğaldan azad olunması haqqında Simanın düşüncələri

- Sima televizorda Naxçıvanı görüb soruşur: "Baba oranı ermənilər tutublar?

Baba: "Yox qızım, ermənilər Dağlıq Qarabağı tutub, inşallah geri qaytaracağıq.

Sima: Necə?

Baba: Bizim güclü ordumuz var. Qəhrəman əsgərlərimiz işğal olunmuş torpaqlarımızı geri qaytaracaq.

Sima bir qədər fikirləşib, ermənilərin işğal zamanı törətdikləri vəhşilikləri gözünün önünə gətirərək,cavab verdi: "Onda gərək biz də vəhşilik edək."

(22.02.2020)




**Azərbaycan Milli Ordusu 44 günlük Vətən müharibəsindəki qələbələrə münasibət**

- Müzəffər Azərbaycan Ordusunun 27 sentyabr-10 noyabr 2020-ci il tarixlərində Respublikanın ərazi bütövlüyünü bərpa etdiyi, işğal olunmuş torpaqları azad etdiyi bir vaxtda vətənpərvərlik hissi əhali arasında, o cümlədən kiçik yaşlı uşaqlar arasında da çox güclü idi. Bu zaman Sima babası gilə gəlmişdi. O, rəngli qələmlərlə Ermənistanın bayrağını çəkərək, tüpürüb, sonra ayaqlarının altına ataraq təpikləmişdi. (Noyabr 2020)



- 2020-ci ilin 27 sentyabrdan sonra işğal olunmuş əraziləri qəhrəman Azərbaycan Milli Ordusu azad etməyə başladıqdan sonra balaca Sima valideynlərinə dedi:

“Mən bundan sonra rus dilində cizgi filmlərə baxmayacam. Çünki Rusiya ermənilərə kömək edir. (oktyabr 2020)

- 2020-ci il oktyabrın 25-i gecə Qubadlı şəhərinin azad olunmasını Sumqayıtda əhali böyük sevinclə qarşıladı. Əhalinin böyük bir hissəsi şəhid general Polad Həşimovun ailəsinin yaşadığı Sumqayıt şəhər 13-cü mikrorayondakı binanın qarşısında kütləvi izdiham keçirdilər. Bu ərazi Sima gilin Corat qəsəbəsindəki evinə yaxın olduğuna görə sevinən izdihamın səsi onların evinə də gəlib çatırdı. Sima: “Ana bu insanlar niyə sevinirlər” deyə anasından soruşdu. Anası cavabında bildirdi ki, qızım Qubadlı şəhəri işğaldan azad olunduğuna görə insanlar sevinirlər”. Sima bir qədər düşündükdən sonra bildirdi: “Amma biz sevinə bilmirik. Çünki Sima nənəmin kəndi hələ azad olunmayıb.” (Bala Simanın ata babası və nənəsi - əslən Qərbi Azərbaycanın Qaraqoyun dərəsindəndir. Nənəsi gilin kəndinin adı Qaraqayadır. (hazırda Ermənistanın Çəmbərək rayonu)



- Sima ata və anası ilə birlikdə imkan olanda cümə günləri Bakıda babası və nənəsini görməyə gedirdilər. Hər dəfə də onlar Simadan ağıllı sözlər eşidirdilər. Bu dəfə də belə oldu. Sima dişlərinin laxladığını bildirdi və həvəslə elan etdi ki, “mənim birinci dişim dekabrın 1-də, Laçın azad olunan günü laxlayıb!” (18 dekabr 2020)



**Azərbaycanın qardaşı Türkiyə, bacısı isə Pakistandır**

- 44 günlük Vətən müharibəsi vaxtı hər yerdə Azərbaycan bayrağı ilə yanaşı, qardaş Türkiyənin və bizə daim beynəlxalq qurumlarda dəstək olmuş Pakistanın bayraqları dalğalanırdı. Sima televiziyalarda çıxışlara və bayraqlara baxaraq babasından soruşdu: "Baba Azərbaycanın qardaşı Türkiyədir, bəs bacısı kimdir? Sonra özü bu suala cavab taparaq sevincək dedi: Tapdım. Azərbaycanın qardaşı Türkiyə, bacısı isə Pakistandır. (Noyabr 2020)



**Bir millət, iki qardaş !**

- Azərbaycan respublikasının prezidenti İlham Əliyev 2021-ci il fevralın 25-də Türkiyə Cümhuriyyətinin prezidenti Rəcəb Tayib Ərdoğanı ad günü münasibəti ilə təbriki televiziyada oxunarkən iki prezidentin şəkilini görən Sima dedi: " Bir millət, iki qardaş!"